# Azərbaycan Ombudsman təsisatının yaranmasının 15 illiyi ilə əlaqədar Bakıda konfrans keçirilib

***Dekabrın 28-də Bakıda Azərbaycan Ombudsman təsisatının yaranmasının 15 illiyi ilə əlaqədar "Multikulturalizm və insan hüquqları: bərabərlik, əməkdaşlıq, inkişaf" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, bir sıra ölkələrin ombudsmanları, dini icmaların rəhbərləri və başqaları iştirak ediblər. Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib.***



Konfransda çıxış edən ombudsman Elmira Süleymanova 15 il ərzində ölkəmizdə insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində görülən işlərdən danışıb. O, Azərbaycan ombudsmanının fəaliyyəti dövründə bu sahədə əldə olunmuş müsbət təcrübələr, həyata keçirilən maarifləndirmə tədbirləri, dövlət orqanları və vətəndaş cəmiyyəti institutları arasında yaradılmış səmərəli əməkdaşlıq barədə məlumat verib. Müvəkkil ölkədə aparılan hüquqi islahatlar, həyata keçirilən strategiyalar və dövlət proqramları barədə danışıb, bütün bunların insan hüquqlarının təmin olunmasına böyük imkanlar açdığını söyləyib. Ölkə Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı", eyni zamanda, 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının mühüm müddəaları da iştirakçıların diqqətinə çatdırılıb. E.Süleymanova BMT tərəfindən 2015-ci ilin sentyabr ayında qəbul edilmiş və özündə 17 məqsədi birləşdirən 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədləri haqqında da söhbət açıb.

Baş nazirin müavini Əli Həsənov konfransda çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyev ölkəmizdə multikulturalizm mühitinin qorunmasına xüsusi diqqət yetirib. Bu məsələ daim dövlətimizin nəzarətindədir. Azərbaycanda milli və dini azlıqlarla bağlı aparılan dövlət siyasəti hər zaman müvafiq beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilib. Ölkəmizin bu sahədə həyata keçirdiyi siyasət və əldə etdiyi təcrübə başqa dövlətlər üçün də nümunə göstərilir. Azərbaycan modelinin dünya modellərindən fərqi ondan ibarətdir ki, multikulturalizm ölkəmizdə yaşayan bütün dinlərin nümayəndələrinin gündəlik həyat tərzinə çevrilib. Təsadüfi deyil ki, Azərbaycan modeli bütün dünyaya yayılıb.

Əli Həsənov qeyd edib ki, Ombudsman təsisatının yaradılması ilə Azərbaycan bütün dünyaya insan hüquqlarına nə qədər böyük əhəmiyyət verdiyini göstərdi. Ombudsman Azərbaycanda insan hüquqlarının qorunması sahəsində xeyli işlər görüb, ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil edib.

Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü barədə danışan Baş nazirin müavini qeyd edib ki, bu təcavüz torpaqlarımızın işğalı ilə yanaşı, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsi ilə nəticələnib. Bu gün isə qaçqın və məcburi köçkünlərin sayı 1 milyon 200 mindən çoxdur. Onların hüquqları kobud şəkildə pozulub və 25 ildən artıqdır ki, bərpa olunmur. Son hesablamalara görə, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ölkəmizə 600 milyard dollardan çox ziyan dəyib. BMT və digər beynəlxalq təşkilatlar münaqişənin həlli ilə bağlı qərar və qətnamələr qəbul edib, lakin bu günə qədər bu münaqişə həllini tapmayıb. Azərbaycan həmişə beynəlxalq təşkilatların qərarlarına hörmətlə yanaşıb, ancaq bizə qarşı ayrı-seçkilik mövcuddur. Bu dərəcədə ədalətsizlik, qeyri-bərabər yanaşma olmaz. Bunun sonu olacaq, dünya bu ədalətsizliyə dözməyəcək.

Ölkəmizin regionun lider dövlətinə çevrildiyini deyən Baş nazirin müavini bildirib ki, Ermənistan yürütdüyü işğalçılıq siyasəti nəticəsində bütün layihələrdən kənarda qalıb. Əgər Azərbaycan torpaqlarını işğal etməsəydi, Ermənistan da bu layihələrdən bəhrələnərdi. Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamaqla uduzur. Azərbaycan istədiyi vaxt torpaqlarını işğaldan azad edə bilər. Aprel döyüşlərində bir daha sübut olundu ki, Azərbaycan Ordusu istənilən an öz torpaqlarını düşmən tapdağından xilas edə bilər.

Rusiyanın insan hüquqları üzrə müvəkkili Tatyana Moskalkova bildirib ki, son 15 ildə Azərbaycan insan hüquqları sahəsində mühüm uğurlar qazanıb. Azərbaycanda insan hüquqlarının təmini ilə bağlı inkişaf göz önündədir. Ölkədə müxtəlif dini konfessiyalar və milli azlıqlar bərabərhüquqlu vətəndaşlar kimi yaşayırlar. Rusiya ombudsmanı vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi-siyasi sahədə də ciddi nailiyyətlər əldə edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi demokratik islahatların ayrılmaz tərkib hissəsi olan insan hüquq və azadlıqlarının təmini və səmərəli şəkildə müdafiəsi istiqamətində ombudsman Elmira Süleymanovanın xidmətlərindən danışıb.

Ölkəmizdə mövcud olan multikultural mühitdən bəhs edən Hicran Hüseynova deyib ki, dünyada artan qlobal qeyri-sabitlik fonunda Azərbaycanda müxtəlif dinlərin və millətlərin birgə yaşaması əsasında qurulmuş multikulturalizm və tolerantlıq hər kəs üçün örnəkdir. Azərbaycan multikulturalizm ideyasını gələcəkdə bəşəriyyətin inkişafı üçün yeganə yol hesab edir. Ümummilli lider Heydər Əliyevin tarixi dəyərlərimizi rəhbər tutaraq əsasını qoyduğu müasir Azərbaycan bu gün beynəlxalq aləmdə özünəməxsus, mütərəqqi model kimi qəbul olunur. Hazırda Prezident İlham Əliyev bu modelin daha da gücləndirilməsinə, dinlərarası qarşılıqlı etimadın möhkəmləndirilməsinə, müxtəlif mədəniyyətlər arasında mübadilə imkanlarının genişləndirilməsinə xüsusi diqqət ayırır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ötən illər ərzində Azərbaycan ombudsmanının çox səmərəli fəaliyyət göstərdiyini söyləyib. Nazir Azərbaycanın insan hüquqları üzrə müvəkkilinin fəaliyyətinin həm ölkə daxilində, həm də dünyada yüksək qiymətləndirildiyini, onun beynəlxalq aləmdə böyük nüfuz qazandığını deyib.

Əbülfəs Qarayev Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin sə-